BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Humanitar elmlər seriyası 2010*

# TƏBRİZ YOLU – ORALIYAM MƏN...

**A.Y.ABUŞOVA**
***Bakı Dövlət Universiteti***
***faust_maks23@mail.ru***

*Süleyman Rüstəm Sovet ideologiyasının buxovlarını qırmış, Cənub mövzusunda silsilə şeirlərlə bütöv Vətən ideyasına sadiq qalmışdır. «Ağladı», «Laylay», ...şeirlərində Cənublu qardaş və bacılarının Vətən nisgili, kədəri, məhəbbəti əks olunmuşdur.*

Söz şeiri yaratmır. Sözü Yaradan şeirdir. Bəs, şeirin yaradıcısı olan ürək onu dünyaya bağlayanda yaranan ümumbəşəri varlığın adı sevgi deyilsə, nədir? Bəzən bir metodla yazan şairin, nasirin öz cığırından daha fərqli yolla getməsi o qədər qəlbəyaxın, o qədər məhrəm, misilsiz və qənirsiz olur ki, heç bir tərifə əsas qalmır. Bu qəbildən fikirləri sadalamaq olar. Lakin onu da qeyd etmək lazımdır ki, hüdudsuzluq hüdud bildikdə nə qədər çərçivədə görünürsə, konkretdirsə, bir o qədər də haqqında danışılası olur. Sözü gedənlərdən, yazı metodunda zamanın tələbi ilə Sovet ideologiyasına sadiq qalan Süleyman Rüstəmin "Cənub şeirləri" silsiləsini yaratması yuxarıdakı qeydlərimizi əsaslandırır. Azərbaycanda Cənub şeirinin görkəmli nümayəndələrindən olan Süleyman Rüstəm hələ ilk ədəbi fəaliyyətində (1923-1924-cü illər) bu mövzuya öz yaradıcılığında geniş yer vermiş və bu əsərlərini ilk şeirlər kitabçası olan "Ələmdən nəşəyə" də nəşr etdirmişdir. O böyük həyəcanla:

Biz gülürük, amma uzaq ellərdə
Ömründə bir kərə gülməyənlər var. (1, 260)

deyərək xalqın hissini tərənnüm etmişdir. Cənubi Azərbaycan mövzuları, demək olar ki, şairlərimizin hamısından daha çox Süleyman Rüstəmi məşğul etmişdir. O, ardıcıl surətdə bu mövzunu izləmiş, müxtəlif şeir və poemalarında müxtəlif şəkildə onu ifadə etmişdir. S.Rüstəm bəzən "Üsyan yarat, üsyan" deyə xalqın qurtuluş yolunu üsyanda görərək "bu əsrdə məsud yaşamaq, haqq yolu bulmaq, üsyanladır, üsyanladır, üsyanladır ancaq" qərarına gəlmişsə, bəzən də bizim nailiyyətlərimizlə Cənubi azərbaycanlıların geriliyini müqayisə edib həyəcanlanmışdır.

Hələ 1933-cü ildə yazmış olduğu "Yaxşı yoldaş" poemasında Süleyman Rüstəm Mil düzündə canlanan sosialist həyatını Arazın tayındakı həyatla müqayisə edərək, oradakı geriliyə kədərlənmişdir. Lakin şair Cənubi Azərbaycan xalqına ümidsiz yanaşmamış və xalqın ayılacağına böyük inam bəsləyərək demişdi:

....Baxıram sonra Arazdan o taya,
Nə deyim, ah, nə deyim mən bu çaya.
Görürəm orda öküz, xış və kotan,
Ayılar bir gün o torpaqda yatan! (1, 261)

Süleyman Rüstəm qabaqcıl bir şair gözü ilə, Cənubi Azərbaycandakı həyatın geriliyini, ictimai zülmü, feodal-patriarxal münasibətlərin hakim olmasını, din, mövhumat və xürafatın xalqı əzib məhv etdiyini təsvir edir. Bütün bu saydıqlarımız onun təsvirində ona görə daha aydın və təsirli çıxır ki, şair mövzuya ehtirasla yanaşır və bədii ifadə vasitələrindən olan kontrastdan istifadə edir.

"Yaxşı yoldaş" poemasını şair kənd təsərrüfatını, mədəni-texniki nailiyyətlərini Cənubi Azərbaycandakı kənd təsərrüfatını primitiv lövhələri ilə müqayisə edərək başlayır. O, gözəl kontrast yaratmaq üçün öz boyalarını əsirgəmir. Gah təsvirdən, gah müqayisədən, gah da rica, nida və xitablardan istifadə edərək, öz ehtirasını oxuculara çatdırır. O, Araza xitabən deyir ki:

Yaxşı bax, gör, nə olur bir o cənubunda sənin
Yanır odlarda yazıq həmvətənin.
Orda aclar, yalavaclar yığılırlar bazara,
Dinləyirlər qoca dərviş babanı.
Çoxunun qəlbi tutulmuş azara...
Baba dərviş yığaraq pul, dolanır meydanı...
Orda qurşun tökülür ağzına üsyançıların.
Hələ də ağrısı var qamçıların-
Qanlı çiynində həqiqət deyənin
Qan soran xanlara nifrət deyənin. (1, 261)

Cənubi Azərbaycan mövzusunda olmasa da, müxtəlif vasitələrlə şair bu mövzuya toxunmağı lazım bilmişdir. Bu nöqteyi-nəzərdən onun "Qaçaq Nəbi" pyesi də maraqlıdır.

XIX əsrin sonlarında Azərbaycan xalqının çarizm və yerli mülkədarlar əleyhinə apardığı mübarizəni təmsil edən dastanı Süleyman Rüstəm əsas götürərək tamamilə orijinal bir dram əsəri yaratmışdır. 1939-1940-cı illərdə başa çatdırılan bu pyesində dramaturq Cənubi Azərbaycan məsələsini də unutmur. Dastanda çar idarələrinin təqibindən qaçıb Təbrizdə gizlənən Nəbi haqqında əhvalata Süleyman Rüstəm yeni məna vermiş və Nəbi ilə Musa kişi simasında xalqın qardaşlığını təmsil etmişdir. Dramın axırında maraqlı bir finala rast gəlirik: Musa kişi Şimali Azərbaycana gələrək həyəcanla xəbər verir ki, Arazın o tayında başlanan üsyan genişlənmişdir. Onu yatırtmaq üçün şah qoşunları hücuma keçmişlər:

Kömək etməsəniz, qardaşlar, bizə,
Düşmən od vuracaq gözəl Təbrizə (2, 262)

Bu məsələni eşidən Nəbi:

Atlanın, dostlarım, Təbrizə birbaş
Köməyə çağırır qardaşı qardaş (1, 262)

- deyə öz dəstəsini hərəkətə gətirir. Müasir tamaşaçı və oxucuların alqışına səbəb olan bu çağırışda böyük məna vardır.

İllər keçdikcə şairin yaradıcılığında Cənub mövzuları da genişlənir. O daha bədii, daha dolğun əsərlər yazır. Şair bu sahədəki yaradıcılığının yüksək nöqtəsinə Böyük Vətən Müharibəsi (II Dünya müharibəsi) illərində çatır.

Böyük Vətən Müharibəsinin ilk aylarında Qızıl Ordu sıralarında Cənubi Azərbaycana gedən Süleyman Rüstəm illər boyu arzuladığı bir xalqın ağır həyatı ilə yaxından tanış olur. O, "Qızıl əsgər" qəzeti, "Vətən yolunda" və yerli mətbuat

səhifələrində fəal surətdə iştirak edərək öz təəssüratını bildirən, onlarca şeirini orada nəşr etdirir. Şair bu təəssüratı hələ 13 oktyabr 1941-ci ildə yazmış olduğu bir lirik şeirində belə ifadə etmişdir:

Sənin çiçəyinə, gülünə qurban,
Mənə qardaş deyən dilinə qurban.
Vətəninə qurban, elinə qurban,
Baxdıqca hüsnünə doymayır gözüm,
Təbrizim, Təbrizim, gözəl Təbrizim (1, 263)

Bu şeirdəki səmimiyyət və ondan doğan nəcib arzular elə ilk misradan özünü göstərir. Azad ellər, yüksək əməllər şairi, hüsn-rəğbət bəslədiyi böyük bir xalqın acınacaqlı həyatına qətiyyən biganə qala bilmir. O, bir şair ehtirası ilə öz ürək sözlərini xalqa çatdırır, həm də açıq danışmaq istəyir. Xalq isə onun dərdinə qəlbdən alışıb yanan bu şairin ürək sözlərini həvəslə dinləyir, onun sözlərində böyük xalqının dostluq və qardaşlıq münasibətinin bir nümunəsini oxuyur.

Süleyman Rüstəmin şair xəyalı əhalinin qarşısında böyük vəzifələr qoyur. O, vəziyyətdən çıxış yolunu göstərir və bu yolun yalnız mübarizədə, həm də silahlı mübarizədə olduğunu bir şeirində təbrizli qardaşlarına müraciət edərək bildirir:

Böylə, qəhrəman oğullar gərək,
Qoy vətən eşqilə döyünsün ürək
Atıl cəbhələrə, gücünü görək,
İgidlər əyilməz, qardaş, əyilmə. (1, 263)

Süleyman Rüstəm gördüyü ağır həyatı dəyişdirmək üçün çalışır və bu qayədə ardıcıl hərəkət edir. Eyni mövzuda müxtəlif şeirlərin yazılması və bunların hamısında mübarizəyə çağırış ruhu fikrimizi təsdiq etməkdədir. Süleyman Rüstəm "Cənublu qardaşımın dərdidir mənim dərdim" deyərkən biz onun xalqın faciəsinə alışıb yandığını görürük. O başqa bir şeirini daha həyəcanlı şəkildə aşağıdakı misralarla başlayır.

Qəlbimdə dəniz var yenə kindən,
Qan- yaş tökəcək el gecə-gündüz.
Bu ölkə dəyişməzsə kökündən. (1, 264)

Süleyman Rüstəm sadəcə təsvir və ya nida ilə kifayətlənmir. şahidi olduğu acınacaqlı həyatın tərənnümündə bədbinləşmir də, əksinə, onun bütün şeirlərində bir nikbinlik, qurtuluş ümidi nəzərə çarpır. Şair bu ümidini öz oxucularına da çatdırıb deyir:

Səni qorxutmasın bu qəmli diyar,
Gələcək bir gözəl səhər gələcək. (1, 264)

Süleyman Rüstəmin Cənub şeirləri şəkli cəhətdən də maraqlıdır. Heca vəznində yazılmış yeni şeirlərin görkəmli nümayənlərindən olan Süleyman Rüstəmin Cənub şeirlərində bunlarla birlikdə əruz vəzninin müxtəlif bəhrlərində yazılmış qəzəllərə də rast gəlirik. Süleyman Rüstəmə görə:

Günah deyil nə qəsidə, nə də qəzəl yazmaq,
Məharət istəyir ancaq bir söz yazmaq. (1, 264)

Şübhəsiz, xalqın tez mənimsəyə biləcəyi bu janrdan istifadə edib, öz yeni fikirlərini deməklə şair düzgün hərəkət etmişdir. Onun qəzəlləri heç də klassik ədəbiyyatımızdakı aşiqanə qəzəllərə bənzəmir. Bu qəzəllərdən birini nəzərdən keçirək:

Araz, hər yaz şimalında, cənubunda çəmən birdir,
Bu torpaqda, o torpaqda qərənfil, yasəmən birdir,
Suya xəncər, bıçaq vursan da, ayrılmaz həqiqətdir.

Uzaqdır ayrılıq bizdən, ürək birdir, bədən birdir.
Araz tən ortasından qəlbinin axdıqca, ey Rüstəm,
Haray sal, qoy bütün aləm eşitsin ki, Vətən birdir! (1, 265)

Göründüyü üzrə şair ən səmimi ürək sözlərini yüksək bədii vasitələrlə qəzəl formasında ifadə etmişdir. Burada oxucunu formadan çox məzmun maraqlandırır. Şair özü də məzmun məsələsinə xüsusi fikir verir. O, bu şeirləri ilə oxucularında milli qürur, vətənpərvərlik hiss və duyğularını, ən həyəcanlı ifadələrini vermək üçün qəzəldən istifadə edir:

Qəmin, dərdin əlindən od tutub axır bədən yandı
Süleyman qafil olma, yaxşı bax ətrafa şairsən,
Cinayət aşdı həddindən, haray sal ki, vətən yandı. (1, 265)

Süleyman Rüstəm Cənub mövzusunda epik əsərlər də yazmışdır. Hələ Təbrizdə ikən yazdığı "Gülbahar" poeması bir Təbrizli qızın acınacaqlı həyatından unudulmaz və kədərli lövhələr təsvir etməkdədir. Bu cür epik əsərləri içərisində "12-ci tüfəng" poeması həm keyfiyyət, həm də kəmiyyətcə xüsusi yer tutmaqdadır. "Bu diyarın dərdlərinə mən hamıdan yaxınam" deyən şair poemasında Cənubi Azərbaycanda şahidi olduğu bir hadisəni qələmə almış və lirik-epik janrın nümunəsində bir əsər yaratmışdır.

Cənubi Azərbaycanda milli demokratik hərəkatın yatırılması Süleyman Rüstəmi yenidən intiqam hissi ilə dolu siyasi lirik şeirlər yaratmağa vadar etmişdir. 1947-ci ildə yazdığı "Cənub həsrəti" şeiri buna misaldır:

Yenə şair ürəyim döndü qana,
Yağır ətrafa dilimdən odlar.
Baxıram dərdli Arazdan o yana,
Görürəm qanla üzür cəlladlar.
Öldürürlər bacımı, qardaşımı,
Tökürəm bir daha mən göz yaşımı.
İntiqam nəğməsi var könlümdə,
Xalqın ölməz səsi var könlümdə. (1, 265)

Belə bir ağır vəziyyətə düçar olmuş xalqın bir gün intiqam alacağına şair əmindir. O belə bir intiqam gününün gələcəyinə və düşmənlərə qarşı onun amansız olacağına əmindir.

Süleyman Rüstəmin şeirləri Cənubi Azərbaycan şairlərinə təsir edən ilk şeir nümunələri kimi orada yaranan yeni ədəbiyyatda silinməz izlər buraxmışdır. Təbriz şairləri onun şeirlərindən ilham və qüvvət alaraq bir sıra gözəl şeirlər yazmışlar.

Müasir Cənubi Azərbaycan şeirində genişlənməkdə olan siyasi lirikanın inkişafında Süleyman Rüstəmin təsirini xüsusilə qeyd etməliyik.

Süleyman Rüstəmin Cənub şeirləri Şimali Azərbaycan şeirimizin ən yaxşı nümunələri kimi bizim oxucular tərəfindən də hərarətlə sevilməkdədir. O bu mövzuda bu gün belə gözəl lirik və epik əsərlər yaratmaqdadır.

Cənub mövzusu və İran irticasının ifşası adlarını çəkdiyimiz bu ədib və şairlərimizin yaradıcılığı ilə bitmir. Demək olar ki, bütün Azərbaycan yazıçılarının bu mövzuya həsr etdikləri əsərlərini toplayan Azərbaycan Mədəni Rabitə Cəmiyyəti onların bir qismini "Vətən eşqi" adlı 190 səhifəlik bir kitabda nəşr etmişdir.

Kitaba müqəddimə yazan yazıçı H.Mehdi haqlı olaraq deyir:

“Ayrılıq dərdi, bacı və qardaş həsrəti, bu məcmuədəki bir çox parçaların əsas məzmununu təşkil edir. Qan qardaşlarının dərdini həqiqi bir ürək ağrısı ilə duyan və təsvir edən Süleyman Rüstəm, Osman Sarıvəlli, Məmməd Rahim, Əhməd Cəmil və başqa şairlərin əsərlərində bu mövzu həqiqi şiddətlə ifadə olunmuşdur. Xüsusən, Osman Sarıvəllinin “Panamalı dilənçi” şeiri bu cəhətdən olduqca mənalı və qiymətlidir:

Sənin yurdun da var, vətənin də var.
Dünyada nə desən vətənində var.
Burda kef çəkənlər ac deyil, yəqin
Öz ana yurdunda sən ki, gülmədin... (1, 267)

Bu sözü Sabirin qəzəbli və ölməz satiraları ilə yanaşı qoysaq, heç də səhv etmərik. O, Sarıvəlli Cənubi Azərbaycan yoxsulunun həyat lövhəsini, doğrudan da, böyük məharətlə yaratmışdır. Bu misralara diqqət edək:

Boğdu fəryad səni, boğdu ah səni,
Yaman günə qoydu Rza şah səni.
Sönən gözlərində qaraldı cahan,
Məhəl qoymadılar axan yaşına.
Sən çörək istədin hökmdarından,
O, panama qoydu sənin başına. (1, 267)

Təbriz həyatını yaxından müşahidə etmiş müəllif başqa yazıçılarımızdan fərqli olaraq, bütün İran üçün səciyyəvi olan bir xüsusiyyəti və onun fəlsəfi məndəricəsini, sərvətlə yoxsulluğun ziddiyyətli lövhəsini, xalqın faciəsini böyük məharətlə ifadə etməyi bacarmışdır”.

Azərbaycan şeirinin təravətlərini Cənuba aparan ilk şairlər sırasında Suleyman Rüstəm Osman Sarıvəllinin adı vardır. Balaş Azəroğlu, Əli Tudə kimi şairlərin heca vəznində yazmaları işində bu şairlərin təsiri güclü olmuşdur.

Süleyman Rüstəm yaradıcılığı üçün Cənub mövzusu yad görünə bilərdi. Lakin əsil yazar incəliyi bütün qadağa və tabuları zərifcə sındıra bilmək qabiliyyətində cəmləşir:

Çoxdandır toy-düyün görməyib obam,
Xırmanda özgə üçün iş görür yabam.
Səttarxandır babam, Babəkdir atam... (4, 49)

Dövrün Sovet senzuralı vaxtı, igtişaşların sıcaq dönəmi, Vətən qeyrətinə arxalanıb yazmaq, susmamaq, qələmə bayraq kimi sancılıb Vətən önündə şair kimi borcunu yerinə yetirmək şairə “Oralıyam mən” deməyə haqq verir:

Harda alnıaçıq insan görsəniz,
Harda ürəklərdə üsyan görsəniz,
Harda məktəbdən çox zindan görsəniz,
Bilin o yerliyəm, oralıyam mən. (4, 49)

Təbii ki, burada sətiraltı mənada müharibələrə, davaya, ikiyə bölünmələrə ikrah, müstəqim mənada nifrət, ifşa və tənqid öz əksini tapır. Şairə görə, “Araz deyir” – insan susur, “Araz deyir” – ürəklər riqqətə gəlir, “Araz deyir” – məntiqlər heyran qalır, “Araz deyir” –

Yox, yaranmamışam mən göz yaşından,
Göyərçin dalğalı Arazdı adım.
Ay ellər, qardaşı qan qardaşından
Ayıran ayırdı, mən ayırmadım. (4, 49)

Əslində “Nigaranam” deyən də şairdir, qoca dünyanın şöhrətinə, adına vurğun olmayan, əbədi olan da

Könlümdə müqəddəs bir həsrətim var,
Ləkə götürməyən həqiqətim var.
Görün, nə maraqlı bir qismətim var,
O taylı, bu taylı Süleymanam mən. (4, 50)

O tay-bu tay, Cənub-Şimal, Güney-Quzey mövzuları dönəm-dönəm bütün Vətən həsrətli, batini Vətən, xarici Vətən, hər anı Vətən olanın vücudunu, ruhunu titrətmiş, üşəndirmişdir. Bu zaman “Ağladı” deyən şair nə qədər də haqlıdır. Ona görə ki, Urmiya gölünə qan çilənib, baharı, yazı ağlar qalıb, sonaları, nazlı gözəlləri sahilindən gedib. Cənub şeirləri sırasında şairin “Könül mahnısı” şeirinin də özünəməxsus yeri vardır. Şeir simvolik olaraq Təbriz gözəlinə xitabən yazılmışdır. Əslində isə digər şairlərin (əsasən klassik şairlərin) istifadə etdiyi metod uyğunluğu görünür. Klassik ədəbiyyatda tez-tez rast gəlinən Gözəllik-Eşq, Eşq-İlahi-Gözəl, Vətən-Gözəl motivi ilə həmahəng şəkildə davam etdirilir. Onu da qeyd etməliyik ki, şair heç də “Ağladı” şeirindəki kimi hər bir şeirində bədbin deyil. Bunu aşağıdakı misralar təsdiqləyir:

Gül kimi bəxtim açacaq,
Can sıxan həsrət köçəcək.
Səslənəcək arzularım,
Hər gün Arazdan keçəcək,
Odlu könül mahnılarım! (4, 50)

Maraqlı ədəbi situasiyadır ki, adətən, “Türkes-hünərəs” (Türk dili – hünər dilidir) deyilərkən heca vəzni də nəzərdə tutulur. Lakin şairin patriot, vətənpərvər mahnılarına sanki heca vəzni də tab gətirmir, çərçivələrə sığmayan Süleyman Rüstəm vətənpərvərliyi heca, əruz sərhədlərini aşır, hətta sərbəst vəznə də yetişir:

Dinlə məni, ey Təbrizli qan qardaşım,
Bağrı yara can sirdaşım,
Nə qədər ki, hicran kəsib yolumuzu,
Sağımızı, solumuzu,
Tələs, qardaş, bircə ovuc torpaq göndər Bakıdakı qardaşına
Səni səndən artıq sevən sirdaşına...

Paylaşmaq – sevinci paylaşmaq, sevgini paylaşmaq, uğrunda can qoyduğun torpağı paylaşmaq (təbii ki, qan qardaşınla, doğmanla) paylaşmaq anlayışının ən ali şəklidir. Şairə görə, Cənubdakı hər kəs onun bacı-qardaşıdır. Odur ki, şair “Amandır, getmə” şeirini “Təbrizdən ayrılarkən qardaşımdan eşitdiklərim” nidasıyla başlayır. Şeir quruluş etibarilə heca vəznində yazılmışdır. “Getmə” sözü rədifdir. Mükəmməl qafiyə uyarlığı, şifahi xalq ədəbiyyatı təməlləri üzərində qurulmuş rədif incəliyi şeirin ruhuna o qədər uyğun gəlir ki, “aşıq şeiri” şəklində “patriot şeir yazıla bilməz” tabusu aradan qalxır. Şair yenə bədbinliyə qapılmışdır. Lakin bu bədbinlik ötəridir, keçəridir:

Sənə göz dikmişdir bu el, bu oymaq,
Üzünə baxmaqla mümkünmü doymaq?
Sən öz evindəsən, deyilsən qonaq,
Bağrı bu ellərin al qandır, getmə.

“Laylay” şeiri də bu baxımdan çox təsirlidir. Vətən ikiyə bölünmüşdür, ana laylay deyir, ikiyə bölünmüş ana Vətənin bayatısını, ikiyə bölünməz ana dilində oxunur.

Mən tanışam bu laylanın hər sözüylə,

Təbrizdəki o daxmada beşiyi də görürəm.
Qana dönmüş ürəyimin gözüylə
Bu laylanın hər səsində,
....Mənə doğma, bir mahnının sətri var. (4, 10)

Bu mahnı Vətən marşıdır, hər notunda şəhid qanlarıyla "Azadlıq" yazılmış Vətən himnidir. Ümumən, Süleyman Rüstəm nikbin ruhlu şairdir. Demək olar ki, o, hər şeirinin sonunda ənənəsinə sadiq qalaraq nikbin əhval-ruhiyyəni əsirgəmir.

Eşitsin ana Vətən,
Bilirəm bu sirri mən,
Körpə sabah öz əliylə,
Xalqın böyük əməliylə,
Quracağı dünyasından razıdır,
Anasının laylasından razıdır. (4, 10)

## ƏDƏBİYYAT


1. Əliqızı A. Cənubi Azərbaycan məsələləri, Bakı, BDU, 2007, 261 s.
2. Xəndan Cəfər. Uğur yolu. Bakı: Azərnəşr, 1987, 281 s.
3. Müasir Azərbaycan ədəbiyyatı. 2 cilddə, I c., Bakı: BDU, 2007, 482 s.
4. Müasir Azərbaycan ədəbiyyatı, 2 cilddə, II c., Bakı: BDU, 2007, 541 s.
5. Süleyman Rustəm. Seçilmiş əsərləri. 3 cilddə. I c., Bakı: Şərq-Qərb, 2005, 320 s.
6. Süleyman Rüstəm. Seçilmiş əsərləri. 3 cilddə. II c., Şərq-Qərb, 2005, 320 s.
7. Süleyman Rüstəm. Cənub şeirləri. Bakı: Şərq-Qərb, 2005,318 s.


## ДОРОГИ ТЕБРИЗА – Я РОДОМ ОТТУДА


**А.Д.АБУШЕВА**


## РЕЗЮМЕ


Входящие в цикл Южные стихи Сулейман Рустама "Agladi", "Laylay", "Oraliyam man", "Araz deyir" и др. отражают любовь к родине и тоску по родине южных сестёр и братьев.


## "THE WAY TO TABRIZ" - "I'm FROM THERE" ("ORALIYAM MAN")


**A.Y.ABUSHOVA**


## SUMMARY


The poems «Agladi», «Laylay», «Oraliyam man», «Araz deyir» etc. by Suleyman Rustam reflect love to motherland and yearn for the country of southern sisters and brothers.